# **Həftəlik**

# *Bülleten*



**100**

**18 İyul 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

**ATMİA**

info@atmia.az www.atmia.az

**İlham Əliyev Xocalı kərpic zavodunun açılışında iştirak edib.**

İyulun 18-də Prezident İlham Əliyev Xocalı kərpic zavodunun açılışında iştirak edib. Bu istehsal müəssisəsi rayonun Daşbulaq kəndində inşa olunub. Layihə dəyəri 8,5 milyon manat olan müəssisədə 60 nəfər daimi işlə təmin edilib. İşçilərin əksəriyyəti işğaldan azad edilmiş rayonların sakinləridir. Gələcəkdə zavodda iş yerlərinin sayının 120-yə çatdırılması nəzərdə tutulur. Müəssisənin illik istehsal gücü 16,2 milyon ədəd kərpic təşkil edir. Zavodda müasir alman və Türkiyə texnologiyaları, eyni zamanda, enerji səmərəliliyinə və ətraf mühitin qorunmasına yönəlmiş texnologiyalar tətbiq olunur. Zavod üçün əsas xammal mənbəyi Xocalı şəhərinin yaxınlığında yerləşən "Xocalı" gil yatağıdır. Müəssisənin sahəsi bir hektara yaxındır. Bundan əlavə, 6,5 hektar ərazi xammalın saxlanılması üçün ayrılıb. Müəssisə işğaldan azad edilmiş ərazilərin rezidentlərinə təqdim olunan bütün güzəşt və azadolmalardan yararlanacaq. İşğaldan azad edilmiş ərazilərdə vergi, sosial sığorta və digər güzəştlərin tətbiqi bu ərazilərimizin iqtisadi potensialının reallaşdırılıması, biznes üçün əlverişli mexanizmlərin yaradılması, məşğulluğu artıran sahibkarlıq fəaliyyətinin təşviq edilməsi kimi məsələlərdə çox mühüm rol oynayır. Bu ərazilərimizdə investor və sahibkarlar üçün əlverişli şərait yaradılır. Ümumilikdə, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə sənayeləşmə siyasəti sistemli və ardıcıl şəkildə aparılır. Bu məsələdə isə texnoloji modernləşmə və innovativ istehsal sahələrinin artırılması əsas prioritetlərdəndir.



**Altı ayda Azərbaycanda 100 yeni dövlət standartı qəbul edilib.**

Cari ilin 6 ayı ərzində Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyində olan Azərbaycan Sandartlaşdırma İnstitutu publik hüquqi şəxs (AZSTAND) tərəfindən 100 yeni dövlət standartı qəbul edilib. Bu barədə AZSTAND-a istinadən xəbər verilir.

Məlumata görə, bu normativ sənədlər müxtəlif sahələr üzrə ölkəmizdə istehlak olunan məhsulların, məhsul istehsalı ilə bağlı proseslərin və istehsal metodlarının təhlükəsizliyinin və keyfiyyətinin yüksəldilməsinə, habelə məhsulların rəqabətqabiliyyətliliyinin artırılmasına və yeni texnologiyaların tətbiqinə şərait yaradır. Qeyd edilib ki, qida texnologiyası və kənd təsərrüfatı üzrə 29, tikinti materialları üzrə 9, informasiya, telekommunikasiya və elektrotexnika sahələri üzrə 17, neft-qaz və əlaqəli texnologiyalar üzrə 9, ətraf mühit üzrə 9, nəqliyyat sahəsi üzrə 6, idarəetmə və keyfiyyət üzrə 2, rezin və plastik sənaye üzrə 2, zərgərlik sahəsi üzrə 1, tekstil və dəri texnologiyası üzrə 16 dövlət standartı qəbul edilib. Eyni zamanda 50 dövlət standartının dövrü yoxlanılması aparılıb və ya dəyişikliklər edilib, 44 dövlət standartı ləğv edilib. Sahibkarların sifarişi əsasında 68 texniki şərt hazırlanıb və ekspertiza edilərək dövlət qeydiyyatına alınıb.

AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU

**Azərbaycanda SSRİ dövründə ayrılmış torpaq sahələrinin qeydiyyatı asanlaşdırılıb.**

Prezident İlham Əliyev “Daşınmaz əmlakın dövlət reyestri haqqında” qanun qüvvəyə minənə qədər əldə edilmiş və yaranmış daşınmaz əmlak obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən sənədlərin Siyahısı"nın təsdiq edilməsi barədə 13 yanvar 2015-ci il tarixli və həmin siyahıda dəyişikliklər edilməsi barədə 30 oktyabr 2015-ci il tarixli fərmanlarında dəyişiklik edilb.

Dövlət başçısı bununla bağlı yeni fərman imzalayıb.

Fərmana əsasən, Azərbaycan SSRİ-nin tərkibində olduğu dövrdə səlahiyyətli orqanların yaşayış və bağ evi tikintisi üçün ayırdığı torpaq sahələrinin qeydiyyatına dair tələblər yumşaldılıb. Belə ki, həmin əmlaklar üzərində hüquqların təmin edilməsi zamanı şəhər və rayon xalq deputatları sovetlərinin icraiyyə komitələrinin verdiyi torpaqdan istifadə hüququna dair dövlət aktı tələb edilməyəcək.

Bundan başqa, qeydiyyat zamanı sovxoz və yaxud dövlət orqanlarının tabeliyində olan digər kənd təsərrüfatı müəssisəsi rəhbərinin (direktor və s.) əmri, yaxud həyətyanı torpaq sahəsi barədə qaytanlanmış torpaq kitablarından çıxarış da nəzərə alınacaq.



**Azərbaycan tikinti sənayesində - BİR İLK!**

11 iyul 2025-ci il tarixində İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) tərəfindən “Sənaye 4.0 Forumu – Gələcəyin sənayesi: Texnologiya və insan gücü” adlı beynəlxalq forum təşkil olunmuşdur. Forumda dövlət qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri və yerli sahibkarlar iştirak etmişlər. Forum çərçivəsində ölkəmizdə ilk dəfə həyata keçirilən “Sənaye 4.0-a Hazırlıq Proqramı”nın pilot mərhələsi ilə bağlı təqdimatda, yerli sənaye müəssisələrində rəqəmsal transformasiyanın tətbiqi istiqamətində görülən işlər qonaqların diqqətinə çatdırılıb. Layihənin pilot mərhələsinə seçilən sənaye müəssisələri rəqəmsal transformasiyanın tətbiqi istiqamətində beynəlxalq təcrübəyə malik “McKinsey & Company” konsaltinq şirkəti ilə əməkdaşlıq etmiş və bu əməkdaşlıq çərçivəsində hər bir müəssisə üçün yol xəritəsi hazırlanmışdır. Pilot mərhələnin icrası üçün seçilmiş müəssisələrdən biri olan METAK şirkəti bu prosesə fəal şəkildə qoşulmuş, artıq zavodda rəqəmsal transformasiyanın tətbiqinə başlanılmışdır. METAK şirkətinin təsisçisi Alik Kərimov forumdakı çıxışında: “Bu proqramın müəssisəmizin fəaliyyətinə və məhsuldarlığına verdiyi müsbət təsir artıq hiss olunur. Ölkədə bu sahədə ilk şirkətlərdən biri olmaq bizim üçün həm böyük məsuliyyət, həm də güclü motivasiyadır.” METAK şirkəti öz fəaliyyətini həm yerli, həm də beynəlxalq səviyyədə “Made in Azerbaijan” brendi altında uğurla davam etdirir.



**3 faydalı qazıntı yatağı hərraca çıxarılacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi və İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Hərracların Təşkili Mərkəzi tərəfindən faydalı qazıntı yataqlarının istifadəyə verilməsi üzrə növbəti hərrac avqustun 7-də keçiriləcək.

Hərracda Oğuz rayonu "Muxas-Daşağılçay" (16 ha), Balakən rayonu "Katexçay" (1.5 ha) qum-çınqıl və Oğuz rayonu "Nic" (3.5 ha) gil yataqları investorlara təklif olunacaq.

İddiaçılar hərracda iştirakla bağlı sənədləri 31 iyul 2025-ci il saat 18:00-dək "Bakı KOB evi"nə (Bakı şəhəri, Ziya Bünyadov prospekti, 38C, 1969-cu məhəllə) təqdim edə bilərlər.

Əsas şərtlər toplusunu əldə etmək və hərracda iştirak üçün iddiaçılar hərrac haqqında elanda qeyd olunan məbləğdə xidmət haqqını və behi ödəməlidirlər. Hərracda xarici ölkələrin hüquqi və fiziki şəxsləri də iştirak edə bilərlər. Hərrac Əmlak Xidmətləri Məkanında keçiriləcəkdir.

Hərrac elanı ilə https://clck.ru/3N93CG linkə keçid etməklə tanış olmaq olar.



**Torpaq sahələrinin istifadəyə və icarəyə verilməsi ilə bağlı – YENİLİK**

Torpaq sahələrinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsinin ümumi əsaslarında dəyişiklik edilir. Mövcud qanunvericiliyə əsasən, torpaq sahəsinin bələdiyyə mülkiyyətində olan müəssisə, idarə və təşkilatların istifadəsinə və ya fərdi yaşayış evinin tikintisi üçün vətəndaşın mülkiyyətinə verilməsi barədə, habelə hüquqi və fiziki şəxslərin mülkiyyətinə (icarəsinə) verilməsi məqsədilə hərracın (müsabiqənin) keçirilməsi barədə bələdiyyənin qərarı sahənin xüsusiyyətinə və torpağın ayrılma məqsədinə, mövcud texniki normalara, habelə yerquruluşu və şəhərsalma sənədlərinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanlarının rəyi alındıqdan sonra qəbul edilir. Təklif edilən dəyişikliyə əsasən, bu qayda təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının tikintisi üçün torpaq sahələrinin ayrılması halına şamil edilməyəcək. “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə əsasən, təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) nəticəsində məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə yeni yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının tikintisi üçün torpaq sahələrinin verilməsi halları istisna olmaqla, digər hallarda bələdiyyə torpaqları üzərində mülkiyyət və icarə hüquqları yalnız açıq torpaq hərracları və ya müsabiqələri vasitəsilə əldə edilə biləcək.



**ATMİA – nın ölkənin nüfuzlu media nümayəndələri ilə Azərbaycan Milli Mətbuatının 150 illiyinə həsr olunmuş işgüzar nahar formatında görüş keçirildi.**

18 iyul 2025-ci il tarixində ölkənin nüfuzlu media nümayəndələri ilə Azərbaycan Milli Mətbuatının 150 illiyinə həsr olunmuş işgüzar nahar formatında görüş keçirildi. Görüş zamanı müasir medianın rolu, ATMİA-da olan yeniliklər, gələcək planlar barədə danışıldı. Tədbir iştirakçıları görüşdən məmnun qalaraq ATMİA -nın rəsmi media qurumları ilə formalaşmış əməkdaşlığın daha da zəngin olacağına əminlik ifadə etdilər.



**Hörmətli ATMİA üzvləri!**

23 iyul saat 11:00-da ATMİA ofisində Azərbaycan Standartlaşdırma İnstitutunun səlahiyyətli nümayəndələri və ATMİA üzvlərinin dəyirmi masa tədbiri keçiriləcək. Tədbirdə tikintidə yeni standartların tətbiqi, inşaat sektorunda sertifikatlaşdırma məsələlərinə toxunulacaq, üzvlərimizi maraqlandıran suallara cavablar veriləcək.
Qeydiyyat 22 iyul saat 12.00: 010 250 03 24

ATMİA

**Hörmətli ATMİA üzvləri!**

1-3 avqust 2025-ci il tarixlərində Cənubi Amerika Biznes Forumu Argentinanın paytaxtı Buenos Ayresdə Buenos Ayres Texnologiya İnstitutunda (ITBA) keçirilən illik konfransı baş tutacaq. Bu mötəbər tədbir 100-ə yaxın ziyarətçini cəlb edir və 40 sərgi iştirakçısı ilə onu təhsil və təlim sahəsində peşəkarlar və həvəskarlar üçün əlamətdar toplantıya çevirir. Cənubi Amerika Biznes Forumu tərəfindən təşkil edilən bu konfrans dərin müzakirələr və şəbəkələşmə imkanları üçün platforma rolunu oynayır.

Tədbirdə iştirak etmək istəyənlər qeydiyyat üçün əlaqə saxlaya bilərlər.

Tel: 050 250 95 17

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: BUILD PAKISTAN - LAHORE 2025**

**Tarixlər: 01 - 03 avqust 2025-ci il,**

**Məkan: Expo Center Lahor, Lahor (Pakistan),**

Beynəlxalq Tikinti və İnşaat Texnologiyası, Materiallar, Əmlak, Daş, İnteryer və Memarlıq Sərgisi və Konfransı.

**Sərginin adı: SUPERBUILD EXPO 2025**

**Tarixlər: 2025-ci ilin avqustunda,**

**Məkan: Cakarta Beynəlxalq Sərgisi (JIExpo), Cakarta (İndoneziya)**

İndoneziyanın tikilmiş ətraf mühit üçün ən böyük ticarət sərgisi, 3 gün davam edən əsas sənaye tədbiri sənaye peşəkarlarına tikinti materialı, texnologiya və tikinti layihələrinin hər mərhələsi üçün məhsullar əldə etməyə imkan verən 12 ixtisaslaşmış tədbirlə yanaşı keçirilir.

**Sərginin adı: SHANGHAI INTELLIGENT BUILDING TECHNOLOGY. 2025**

**Tarixlər: 13-15 avqust 2025-ci il,**

**Məkan: Şanxay Yeni Beynəlxalq Sərgi Mərkəzi – SNIEC, Şanxay (Çin)**

Çində Ağıllı Tikinti Texnologiyaları sərgisi. SIBT Bina avtomatlaşdırılması, Ümumi kabel və məlumat mərkəzi, Təhlükəsizlik və girişə nəzarət sistemləri və məhsulları, Ağıllı ev və icma və Binanın enerji səmərəliliyinin enerji idarəçiliyini nümayiş etdirir.

**Sərginin adı: Construction Expo Astana 2025**

**Tarixlər: 20 - 22 avqust 2025-ci il,**

**Məkan: Astana, Qazaxıstan,**

Qabaqcıl tikinti həllərini təqdim etmək üçün unikal platformadır: materiallar, mülki və sənaye sektorları üçün sistemlər.

**3 rayonda açıq meydançalar tikiləcək - TENDER KEÇİRİLİR.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti açıq tender elan edir.
Elanda "Sağlam məhəllə” layihəsi çərçivəsində 3 rayonda açıq meydançaların tikintisi və avadanlıqlarla təchizatı işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Nərgiz Sadıqzadə, Satınalmalar üzrə baş mütəxəssis
Email : nsadiggintoom@gmail.com
Əlaqə telefonnu: +994 50 879 22 28



**"AZƏRİDMANSERVİS" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.**

"AZƏRİDMANSERVİS" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ açıq tender elan edir.
Elanda Bakı şəhəri, Xəzər rayonu, Şağan qəsəbəsində yerləşən idman kompleksinin Futbol meydançasının örtüyünün təmir işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Leyla Şərifova, Dövlət Satınalma üzrə baş mütəxəssis
Email : leyla.sharifova@azeridmanservis.com
Əlaqə telefonnu: +994 12 565 05 55



**AĞDAM, FÜZULİ VƏ XOCAVƏND RAYONLARINDA BƏRPA,TİKİNTİ VƏ İDARƏETMƏ XİDMƏTİ PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER KEÇİRİLİR.**

Ağdam, Füzuli Və Xocavənd Rayonlarında Bərpa,tikinti Və İdarəetmə Xidməti Publik Hüquqi Şəxsi tender keçirilir.
Elanda "Ağdam şəhəri 5-ci yaşayış massivi, məhəllə O-121 üzrə binaların tikintisi işləri"nin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Hikmət Qasımov, Satınalma və təchizat departamentinin müdir müvini, Satınalma şöbəsinin müdiri
Email: h.gasimov@afxbti.gov.az
Əlaqə telefonu: +994 55 248 66 99



**İSMAYILLI SU MELİORASİYA SİSTEMLƏRİNİN İSTİSMARI İDARƏSİ TENDER ELAN EDİR.**

İsmayıllı Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi tender elan edir.
Elanda cari təmir işləri üçün tikinti mal-materiallarının satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əliəkbər Hacıyev, Texniki istehsalat və istismar şöbəsinin şöbə rəisi
Email: ismayillismsii@rsmx.gov.az
Əlaqə telefonu: +994 50 899 49 20



## NAXÇIVAN MR GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ TENDER KEÇİRİLİR.

Naxçıvan Mr Gənclər Və İdman Nazirliyi açıq tender elan edir.
Elanda Naxçıvan Muxtar Respublika Stadionunun əsaslı təmiri və yenidənqurulması üzrə layihələndirmə xidmətinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Ülvi Əliyev, Əlaqələndirici şəxs
Email : ulvieliyev37@gmail.com
Əlaqə telefonnu: +994 60 304 56 57



**"SEDAM" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.**

"Sedam" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir. Elanda rejim-müşahidə quyularının cari təmiri məqsədilə (çınqıl, qara qum və sementin) satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Roman Cabbarov, Şöbə müdiri
Email : roman.cabbarov.sedam@gmail.com
Əlaqə telefonnu: +994 12 412 89 70





**www.atmia.az**